

FAİQ QİSMƏTOĞLU
faiq_qismetoglu@box.az

# DÜYÜN

## Yaxud yolun ortasına atılmış meyit

... Səhərin gözü hələ açılmamışdı və qaranlıq idi. Səhərin gözü açılmamışdan Bəhmənlidən çox az adam maşınla kənddən çıxar, ya rayon mərkəzinə gedər, ya da Bakıya üz tutardı. Onda indiki kimi kənddə çoxlu maşın yox idi. O böyüklüdə Bəhmənlidə cəmi-cümlətanı altı maşın vardı. Və o altı maşından biri də Qurban kişidəydi. Elə səhərin gözü açılmamışdan maşını işə salmış, sükan arxasında əyləşmiş və kənddən çıxmaq istəyəndə su idarəsinin yanında, yəni Məmiş kişinin yaşadığı yerdə yolun ortasında bir qaraltı gördü. Maşını yavaş sürdüyünə görə, qaraltının üstünə düşən işıqda nəyinsə olduğunu hiss etdi. Düşündü ki, nə yaxşı maşını bərk sürməyib...

... Maşının mühərrikini söndürmədən yavaş-yavaş bir az da o qaraltıya yaxınlaşdı. İşıq o qaraltını bir az da işıqlandırdı. Maşından düşüb yolun ortasına atılmış o qaraltıya yaxınlaşdı. Baxanda gördü ki, bu adi qaraltı deyil. Tikinti idarəsində qaravolçu işləyən Rüstəm kişinin meytidi. Bir anlıq Qurban kişi özünü itirdi. Elə qonşuluqda olan Məmiş kişini səslədi:

- Ay Məmiş, ay Məmiş, bir çölə çıx!

... Məmiş kişi pencəyini çiyninə atdı, cəld şalvarını geyinib səs gələn tərəfə getdi. Hələ də mühərriki sönməyən maşının səsini eşitdi. Qaranlıq olduğuna görə, əl fanarını da özüylə götürdü. Düz gəlib yolun kənarında dayandı:

- Qurban, məni çağıran sənsən?

Qurban kişi:

- Hə - dedi. - Gəl bir yola bax, gör bu Rüstəm kişinin meyitidi, ya yox?! Bəlkə mən səhv eləyirəm...

Məmiş kişi əlindəki fanarın işığını meyitin üstünə saldı və sonra da gözləri doldu:

- Düz tanımısan a Qurban, bu Rüstəm kişidi. Yazıq tikintidə qarovulçu işləyirdi. Gör bunu nə zülmlə öldürüblər. Kim eləyibsə, Allah bəlasını versin! Özü də gətirib yolun ortasına atıblar ki, maşın üstündən keçsin və iz də itsin...

Qurban kişi yenidən dilləndi:

- Sən burda dur, mən qayıdım kəndə əmioğlumgilə. Onlarda telefon var. Milisə zəng edib xəbər verim. Birdən evə qayıdarsan ha! Kənddən gələn başqa maşının sürücüsü fikirli olar, meyitin üstündən keçər...

Məmiş kişi yaşarmış gözlərini sildi:

- Sən nə danışırsan a Qurban, heç elə şey olar, Rüstəmin meyitini qoyub evə gedərəm? Sən get, milisə xəbər ver!

... Qurban kişi maşını kəndə sarı döndərdi və düz əmisi oğlugilin qapısına sarı üz tutdu. Hələ də səhərin gözü açılmamışdı. Və Qurban kişi gəlib əmisi oğlugilin qapısında maşını saxladı və bir neçə dəfə əmisi oğlunu səslədi. Səsə əmisi oğlunun böyük oğlu çıxdı. Tanıdı ki, çağıran Qurban əmisidi. Və dedi:

- Ay əmi, səhərin gözü açılmamış xeyir ola?

Qurban kişi:

- Əmioğlum da yatıb, xəstədi. Onu narahat eləmək istəmirəm. Amma məcburam sizə deyim. Kəndin girəcəyində Rüstəm kişini öldürüb yolun ortasına atıblar. Sizdə də telefon olduğuna görə gəldim burdan zəng edib milisə xəbər verim.

... Qapıda Qurban kişinin səsini eşidən kimi əmioğlusu da yuxudan oyandı. Qurban kişi otağa keçib:

- Ay əmioğlu, bəd xəbər olmasın, bəs qaravolçu Rüstəmi öldürüblər. İstəyirəm elə burdan milisə zəng edim - dedi.

... Baş verən qətl hadisəsinə əmioğlusu da təəssüfləndi. Dedi ki, balam, Rüstəm kişi kimə nə eləmişdi ki, onu öldürüblər? Telefonla milisə zəng elədilər, ölüm hadisəsi ilə bağlı milisə xəbər verdilər.

... Rayon mərkəzi ilə Bəhmənlinin arası 50 km məsafə idi. Ordan milislər və müstəntiq hadisə yerinə gələnə qədər ən azı bir saata yaxın vaxt keçdi. Ona kimi də kənd camaatı və qonşu Yağlıvənddən olanlar hadisə yerinə yığışdılar... ... Hərənin ağzından bir söz çıxırdı. Biri deyirdi ki, bir neçə gün əvvəl Bəhmənlidə mal-qaranın örüşə girməsinə görə Rüstəm kişi iki qardaşla mübahisə eləyib. Biri də deyirdi ki, əşi, onlar boş şeydi ey, bunun kiminləsə dədə-babadan düşmənçiliyi varmış, onlar da gəlib qisasını alıblar. Bir başqası da deyirdi ki, əşi, Rüstəmi hər adam öldürə bilməzdi. Çünki o, çox güclü adamıydı. Bu bir nəfərin işi deyil, iki-üç nəfərin əməlidi...

... Bir saatdan sonra hadisə yerinə müstəntiq, kriminalist, prokuror və rəis müavini Məmmədov gəldilər. Milis rəisi Hacı Dadaşov məzuniyyətdə idi. Onu müavini Məmmədov əvəz eləyirdi. Müstəntiq də, kriminalist də hadisə yerini diqqətlə nəzərdən keçirdilər. Meyitin müayinəsi isə xüsusi diqqət çəkdi. Və müayinə zamanı müstəntiqlə prokurorun sözü üst-üstə düşmədi. Söhbəti orda kəsdilər.

... Hadisə yerinə baxış zamanı istintaq üçün çox lazımi sübutlar götürüldü. Xüsusilə də qətl zamanı cinayətkarlarla Rüstəm kişinin mübarizəsi önə çəkildi. Məlum oldu ki, cinayəti törədən şəxslə süpürləşən zaman onun dırnaqlarının arasında cinayətkarın tükü qalmışdı. Bax, bu tük məsələsi də istintaq üçün çox önəmli əhəmiyyət kəsb edirdi...

... Şübhəli şəxs kimi istintaq bir neçə adamdan şübhələnirdi. Prokuror Zeynalov bir neçə həftə əvvəl Rüstəm kişiylə mübahisə eləmiş, iki qardaşı - Nəcəf və Eldar Babayevlərin cinayət məsuliyyətinə cəlb olunması ilə bağlı sanksiya da imzaladı. Və prokurorun sanksiyası ilə şübhəli şəxs qismində hər iki qardaş həbs olundu və Bayıl həbsxanasına göndərildi...

... İstintaqın xeyli ləngiməsi və bəzən də fərqli ifadələr zərərçəkmiş tərəfi çox narahat edirdi. Və zərərçəkmiş tərəf də elə iki ayağını bir başmağa dirəyib deyirdi ki, Rüstəm kişini bu iki qardaş öldürüb. Təbii ki, "öldürüb" demək asan idi və onlardan şübhələnmək də olardı. Amma bu şübhələri sübut edən maddi dəlillər və faktlar lazım idi. O isə yetərincə deyildi. Müstəntiq də, prokuror da işi tezbazar baxılması üçün Füzuli rayon Məhkəməsinə göndərdi. Bu isə o demək idi ki, artıq istintaq bitmiş, indi isə məhkəmə istintaqı başlamalıydı...

... Rayona da əslən Dəvəçidən olan 25 yaşlı cavan bir oğlan hakim təyin edilmişdi. Və bu cavan oğlan da işə başladığı ilk gündən Füzuli camaatının və elin, obanın hörmətini qazanmışdı. Yəni başqa hakimlər kimi hərəkət etməz, dədəsi qəbirdən dirilib gəlsə də haqqı nahaqqa verməzdi. Çünki onun babası da, dədəsi də Rəhmli kəndində haqqədalət carçısı kimi tanınmışdı. Hətta rayon məhkəməsinin sədri Məmməd Kərimovun atası Abdulməcid kişi də Dəvəçidən oğlu Füzuliyə hakim gedəndə demiş di ki, oğul, heç vaxt haqsızlıq, ədalətsizlik eləmə. Əgər haqsızlıq, ədalətsizlik eləsən, verdiyim çörək səni tutacaq!

... Üstəlik də 25 yaşında gənc bir oğlanın böyük bir rayona məhkəmənin sədri təyin edilməsi çox böyük məsuliyyət idi. Hakim Məmməd Kərimov Füzuli camaatı ilə o qədər qaynayıb qarışmışdı ki, onları öz doğmaları kimi bilirdi. Hətta deyirdi ki, Füzuli mənim ikinci vətənimdi. O, şeirə, poeziyaya, ədəbiyyata da çox böyük maraq göstərirdi. İstedadlı yazıçı və şair Seyran Səxavət, Vaqif Bəhmənli ilə dostluq eləyirdi. Elə onun çörək kəsdiyi adamların da çoxu ziyalı və sadə adamlar idi.

... Dəfələrlə vətəndaşları şərləyib böhtan atan milis işçilərini məsuliyyətə cəlb etmişdi. Ona görə də Füzuli camaatı yaxşı bilirdi ki, Məmməd Kərimov çox vicdanlı və namuslu bir hakimdi. Haqsız yerə və maddi sübut olmadan heç kimə cəza təyin etməz...

... Bir müddətdən sonra cinayət işi hakimin masasının üstünə gəlib çıxdı. Zarafat deyildi, iki qardaş bir nəfərin qətlində ittiham olunurdu. Hakim istintaq materiallarını vərəq-vərəq oxudu və araşdırdı. Şübhələndiyi və istintaqda səhv addımlar atılan yerləri xüsusi nəzarətdə saxladı. Proses başlamamışdan öncə istintaq zamanı qanun pozuntularını müstəntiqin və prokurorun nəzərinə çatdırdı. Bir neçə gündən sonra isə həmin cinayət işinin məhkəmə istintaqı başlandı...

... Elə ilk gündən məhkəmə istintaqında bəzi şübhəli məqamlar üzə çıxdı. Məlum oldu ki, ekspertiza rəyində göstərilən mərhumun dırnaqlarının arasındakı tüklər o iki qardaşın heç birinə məxsus deyil. Elə bu şübhəli məqamlar hakimə məhkəmə istintaqında şərait yaratdı ki, kələfin ucunu ələ keçirsin. Kələfin ucunu isə ələ keçirməksə elə də asan deyildi; çünki raykomun birinci katibi Qədim Əhmədov, prokuror Zeynalov və müstəntiq Əhmədov çalışırdılar ki, məhkəmə istintaqı tezliklə yekunlaşsın və müttəhimlərə cəza təyin edilsin.

... Cinayət işinin acı bağırsaq kimi uzanması davam edirdi. Zərərçəkmiş tərəf də cinayətkarın tapılıb cəzalanması üçün Mərkəzi Komitədən tutmuş Respublika Prokurorluğuna, Ədliyyə Nazirliyinə qədər şikayətlər yazırdı. Və bu şikayətlərin də ardı-arası kəsilmirdi...

(Ardı növbəti şənbə nömrəmizdə)